İki sahil



28 oktyabr / 2021

# "DAVAM" RƏSM SƏRGİSİ VƏ KONSERT PROQRAMI TƏŞKİL EDİB



Oktyabrın 26-da "Davam" Gənclər Hərəkatının nəzdində fəaliyyət göstərən Davamlı İnkişaf Mərkəzinin, "Unicorn Challenge" şirkətinin və Bakı Gənclər Mərkəzinin birgə təşkilatçılığı ilə "Qarabağ atları" adlı rəsm sərgisinin açılış mərasimi keçirilib. Bakı Gənclər Mərkəzində keçirilən tədbir zamanı Qarabağ atları ilə bağlı film də nümayiş olunub.

Həmin gün Bakı Gənclər Mərkəzində, həmçinin "Davam" Gənclər Hərəkatının nəzdində fəaliyyət göstərən "Davam" Mədəniyyət Klubunun təşkilatçılığı, Bakı Gənclər Mərkəzinin tərəfdaşlığı ilə musiqi dünyamızın əbədi səsli sənətkarı Müslüm Maqomayevin əziz xatirəsinə həsr olunmuş konsert proqramı təqdim edilib. Konsertdə "Davam" Gənclər Hərəkatının katibliyi və təşkilatın üzvü olan 100-dən çox gənc iştirak edib.

Konsertin əvvəlində "Davam" Mədəniyyət Klubunun fəal üzvü Nadir Səlimovun nəfəs aləti ilə ifasında Azərbaycanın Dövlət Himni səsləndirilib. Sonra klubun fəal üzvləri Kamal Axundov və Sübhan Hüseynli Müslüm Maqomayevin unudulmaz səsi ilə yadda qalan mahnıları ifa ediblər. Proqram müddətində ifalar arasında böyük sənətkarın həyat və yaradıcılığından bəhs edən müxtəlif videoçarxlar nümayiş olunub.

Konsertin sonunda "Davam" Gənclər Hərəkatının baş katibi Nigar Aslanova, Davamlı İnkişaf Mərkəzinin direktoru Niyaz Əliyev gənclərə gözəl təşkilatçılıq üçün minnətdarlıqlarını bildiriblər, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

**Cavid Əkbərov**, ***"İki sahil"***